WWW.KASPI.AZ 22 sentyabr 2018

# Daha əzəmətli evlər

*hekayə*





■ Kurt Vonnequt

Biz Qreys və Corc Makklelanları artıq iki ildir ki, tanıyırıq. Kənddəki təzə evimizə köçəndə ilk dəfə onlar bizə gəlib "xoş gəldin" demişdilər.

Mən gözləyirdim ki, ilk söhbətlərdən sonra danışmaq üçün mövzu olmayacaq. Ancaq, gözləri sərçə gözləri kimi oynaq və parıltılı Qreys saatlarla söhbət etməyə mövzu tapırdı.

- Bilirsiniz, - o həyəcanla dedi. - Sizin qonaq otağınız bundan da gözəl ola bilərdi. Corc, düz demirəm? Siz bunu hiss etmirsiniz?

- Hə, - onun əri dedi - Yaxşı, düz deyirsən.

- Sadəcə ağ rənglənmiş taxtaları çıxarıb atın, - Qreys gözlərini qıyıb dedi. - Əvəzində düyünlü şam taxtaları vurun, umbra əlavə edilmiş kətan yağı ilə sürtün. Taxtın üstünə tünd qırmızı pomada rəngində örtük çəkin. Fikrimi anlayırsınız?

- Nə? Qırmızı? - Enn, arvadım soruşdu.

- Hə, qırmızı! Bu rəngdən qorxmayın!

- Çalışaram, - Enn dedi.

- O iki yöndəmsiz pəncərəyə isə tünd-yaşıl pərdələr vurun. Siz bunu hiss etmirsiniz. Belə etsəniz eviniz fevralda göstərilən "Better House" and "Garden" serialındakı evə oxşayar. Yəqin ki, siz o seriyalı xatırlayırsınız.

- Bəlkə də həmin seriala baxmamışam, - Enn dedi. İndi avqust ayı idi.

- Corc, bəlkə o "Good Homelife" seriyalındakı evə oxşayır? - Qreys ərindən soruşdu.

- Hə, yadıma düşür, - Corc dedi.

- Yaxşı, fayllarımı açıb baxaram, görüm o evlərin şəklini taparammı? - belə deyib Qreys ayağa durdu, heç bir dəvət gözləmədən otaqlara baxmağa başladı.

O otaqlardakı mebellərə baxır, bəzi mebelləri Xilaskar Ordunun yataqxanasına göndərməyi məsləhət görür, hansısa mebelin antik olduğunu "aşkar edir", evə köçməzdən qabaq divarboyu xalça sifariş vermədiyimizə görə bizi danlayırdı.

- Birinci xalça almalıydınız, - o ciddi halda deyirdi. - Xalça divanın bu hissəsini tamam örtərdi.

- Hm. - Enn dedi.

- Yəqin ki, siz "Home Beautiful" jurnalının iyun nömrəsində əsas 19 xalça səhvini görmüsünüz.

- Hə, hə, görmüşəm, - Enn dedi.

- Yaxşı. Sizi necə başa salım ki, xalçanı birinci almadığınıza görə necə böyük səhvə yol vermisiniz. Corc, bura bax... Ah, o hələ qonaq otağındadır.

Mən Qreysin arxasınca gedir, çalışırdım ki, söhbətin mövzusunu dəyişim.

- Siz bizim şimal tərəfdəki qonşumuzsunuz. Bəs cənub tərəfdəki qonşumuz kimdir?

Qreys dayandı.

- Ah, siz hələ Cenkinsləri görməmisiniz? Corc, onlar Cenkinsləri soruşur. Onlar Cenkinslər haqqında bilmək istəyir.

Onun səsinin tonundan hiss etdim ki, bizim cənub qonşularımız avaranın biridir.

- Qreys, onlar ki, yaxşı adamlardır, - Corc arvadına dedi.

- Ah, Corc, sən ki bu qonşuların necə bir adam olduğunu çox yaxşı bilirsən, - Qreys dedi. - Hə, düzdür onlar çox yaxşı adamdır, ancaq. - Qreys belə deyib güldü və başını yellədi.

- Ancaq nə? - soruşdum.

Ağlıma min fikir gəldi. Narkoman? Anarxist? Dağsiçanı toplayan? Nudist?

- Onlar bura 1945-ci ildə köçüblər, - Qreys dedi. - Evə köçən kimi də iki dənə Hitçkok kreslosu aldılar və... - Qreys sözünü bitirməyib dərindən nəfəs aldı, sonra çiyinlərini çəkdi.

- Sonra nə oldu? - mən istədim ki, o sözünü tamamlasın. - Yoxsa kreslonun üstünə Hind mürəkkəbi dağıldı? Ya da kreslonun üzünün altından bir dəstə minlik dollar tapdılar?

- Kreslo aldılar, vəssalam! Ondan sonra heç nə almadılar!

-Necə yəni?

- Onlar iki qəşəng kreslo almaqla yaxşı başladılar, amma sonra heç nə almadılar.

- Aha, anlayıram, - Enn dedi. - Deməli, yalnız bircə dəfə təzə əşya aldılar. Cenkinslərin səhvi budur.

- Lap onlardan zəhləm getdi, - dedim.

Qreys dediyimi eşitmədi. İndi o yemək otağı ilə qonaq otağı arasında vargəl edirdi. Görürdüm ki, o hər dəfə qonaq otağına girib - çıxanda həmişə eyni yerdə asta-asta qaçır. Maraq məni bürüdü, hər dəfə onun canını qurtarmaq istədiyi yerə gəldim, bir iki dəfə həmin yerdə tullanıb-düşdüm ki, görüm döşəmə laxlayıb, ya yox.

O mənim həmin yerdə tullandığımı görüb təəccübləndi:

- Ah! - dedi.

- Nə olub? Nəsə səhv edirəm? - soruşdum.

- Heç gözləməzdim ki, siz bu yerdə tullanasınız.

- Üzr istəyirəm, - dedim.

- Bilirsiniz ki, burda kiçik deşik var.

Mən yana çəkildim ki, o gözəgörünməz deşiyə yaxşı baxsın. İlk dəfə onda onun hərəkətləri məni həyəcanlandırdı.

- Bircə kiçik mismar ora dəysə deşik böyüyər, - o dedi, həmin yerdən ehtiyatla keçdi ki, birdən yıxılıb ayaqlarını sındırar.

- Etiraz etmirsinizsə o biri yerlərə də baxım, - o dedi.

- Yaxşı, düz gedin, - Enn dedi.

Corc divandan durmuşdu. O ayağa durub bir müddət pilləkənlərə baxdı, sonra boş qədəhini qaldırıb dedi:

- Etiraz etmirsinizsə bir qədəh də içim.

- Corc, istədiyin qədər iç. Biz sənə heç də yaxşı qulluq etmədik. Özün süz, istədiyin qədər iç. Bax, butulka orda, yemək otağındadır, - dedim.

Corc birbaşa yemək otağına keçdi, butulkadan qədəhinə viski süzdü.

- Sizin hamam otağınızdakı kafellər heç də oradakı dəsmallara uyğun deyil, - Qreys pilləkəni düşə-düşə dedi.

Qulluqçu kimi onun arxasınca gedən Enn onun dediklərini təsdiqlədi:

- Hə, düz deyirsən. Əlbəttə.

Corc qədəhini qaldırdı. Göz vurub qədəhi başına çəkdi.

- Ona imkan verməyin ki, evdə hər şeyi gözünüzdən salsın. Bu, onun danışıq formasıdır. Eviniz çox gözəldir, mənim xoşuma gəlir. Elə Qreys də evinizi çox xoşlayır.

- Minnətdaram, Corc, çox sağ olun, - dedim.

* * *

Enn və Qreys yenə də aşağı mərtəbədə idi.

Enn bir az həyəcanlı görünürdü.

- Ah, siz kişilər, - Qreys dedi. - Siz elə fikirləşirsiniz ki, biz qadınlar axmağıq, elədir?

Belə deyib o Ennin üzünə baxdı və gülümsədi.

- Bu kişilər heç bilmir ki, qadınları nə maraqlandırır. Biz burda mehriban söhbət edəndə siz kişilər orda nə barədə danışırdınız?

- Mən ona deyirdim ki, ağacların üstünə divar kağızı vursun, açar deşiklərinin üstünə isə çitdən balaca pərdə assınlar. - Corc dedi.

- Hmmm, - dedi. - Yaxşı, əzizim, evə getmək vaxtıdır, - Qreys dedi, qapıya tərəf getdi.

Qapının ağzında dayandı.

- Bu qapının üstünə nazik xətt çəkmək lazımdır. Zəncəfil rəngində. Sonra isə üstündən ağ rəng çəkməklə onu daha parlaq edə bilərsiniz. Onda qapı elə sizin özünüzə oxşayacaq, - o dedi.

- Sən bizə çox kömək edirsən, - Enn dedi.

- Əzəmətli ev üçün çox şeylər lazımdır, - Corc dedi.

- And içərəm ki, - Qreys dedi. - Heç vaxt onun kimi rəssama rast gəlmədim. Bu vaxtacan rast gəldiyim heç bir kişinin Corc kimi bədii zövqü yoxdur.

- Sənin kimi, - Corc sakitcə dedi.

Sonra o məni təəccübləndirdi. Mehriban-mehriban Qreysə baxdı.

Onlar gedəndən sonra dedim:

- Evimiz çox gözəldir.

- Bilirəm, amma hələ çox şeyə ehtiyac var. Qonşumuz beş ildir ki, evinə köçüb. Təsəvvür edirəm bu beş ildə o evində necə dəyişiklik edib. Hər şey, xırda mismara kimi yerindədir.

- Ancaq bayırdan baxanda onların evi heç də yaxşı görünmür. Enn, sən heç özünə oxşamırsan.

Enn başını silkələdi, elə bil özünü oyatmaq istəyirdi.

- Özümə oxşamıram, düzdür? Həyatım boyu heç vaxt qonşularla münasibətdə olmağa marağım olmayıb. Ancaq bu qadın tamam başqadır. Onda qəribə cəlbedicilik var.

- Cəhənnəm olsun o qadın! Gəl Cenkinslərlə münasibət yaradaq!

Enn güldü. Qreysin sözləri arvadıma da təsir etmişdi:

- Dəli olmusan? Cəmi iki kreslosu olan adamlarla dost olmaq? Sən nə danışırsan?

- Bəlkə təzə bir taxt alıb onlara bağışlayaq? Bu yolla dostluğa yol açaq.

- Hər taxt yox. Kresloya uyğun gələn taxt, - arvadım dedi.

- Əgər onlar bizimlə dost olmaq istəyirlərsə gərək istənilən rəngdə olan taxtı qəbul etsinlər, - dedim. - Həm də onlar xalçadan başlasaydılar yaxşı olardı.

- Düz deyirsən, - Enn qətiyyətlə dedi.

* * *

Ancaq Cenkinslərlə qonşuluq etməyə heç boş vaxtımız olmadı. Qreys Makklelan demək olar ki, bütün günü bizim evdə olurdu. Hər səhər mən işə gedən vaxtlarda o ev dekorasiyası ilə bağlı bir qalaq jurnalı da qoltuğuna vurub bizə gələr, təkid edirdi ki, Enn bu jurnallara baxıb problemli evimizin qüsurlarını düzəltsin.

- Yəqin ki, onlar çox varlıdır, - bir axşam stol arxasında oturanda Enn mənə dedi.

- Mən belə düşünmürəm, - dedim. - Corcun kiçik bir dəri dükanı var, illərlə o dükanın qapısını açıb içəri girən yoxdur.

- Yaxşı, razıyam, onda bəlkə qazandıqları hər senti evə xərcləyirlər.

- Buna inanıram. Bəs sən niyə fikirləşirsən ki, onlar varlıdır?

- Bu qadının söhbətinə qulaq asanda mənə elə gəlir ki, onun üçün pul heç nədir. O gözlərini də qırpmadan metrəsə on dollara olan pərdələrdən danışır, deyir ki, buxarısı olmayan mətbəx heç nədir.

- Buxarısı olmayan mətbəx heç nədir? - soruşdum.

- Hə, deyir ki, mətbəxdə mütləq dəyirmi kreslo olmalıdır.

- Enn, ondan uzaqlaşmaq üçün bir yol tapa bilmərsən? O söhbətləriylə səni çox yorur. O bizə gələndə ona deyə bilməzsən ki, işin var, çox məşğulsan?

- Buna ürək edə bilmirəm. O çox mehriban, çox səmimidir. Bir də o tamam təkdir, - Enn acizanə şəkildə dedi.

- Bundan başqa, ona desəm də faydası olmaz. Çünki o heç vaxt mənim nə dediyimə qulaq asmır. Onun başı mebel, divar kağızı, süfrə, rənglərlə doludur.

- Elə isə mövzunu dəyiş, - təklif etdim.

- Nə? Mövzunu dəyişim? Missisipinin istiqamətini dəyişmək? Əgər itlərdən danışam o dərhal it damlarını necə tikməyi mənə xatırladacaq.

Telefon zəng çaldı. Dəstəyi götürüb cavab verdim. Zəng edən Qreys Makklelan idi.

Davamı səhifə 15-də

(Əvvəli səhifə 14-də)

- Bəli, Qreys xanım!

- Siz ofis mebeli işində çalışırsınız, elədir?

- Hə, - dedim.

- Sizdə satışda faylları yığmaq üçün şkaflar satılır?

- Olur. Mən bunları xoşlamasam da hərdən olur.

- Mənə birini gətirə bilərsiniz? - o dedi.

Bir dəqiqə fikirləşdim. Mənim iş otağımda belə bir şkaf vardı. Onu zibilliyə atmaq istəyirdim. Ona da otağımda belə biş şkaf olduğunu dedim.

- Ah, onu mənə versəniz çox yaxşı olardı, - o dedi. - "Better House" jurnalının keçən ayki nömrəsində belə köhnə şkaflardan nə düzəltmək haqqında maraqlı bir məqalə vardı. Belə şkafların üstünə divar kağızı çəkməklə onları gözəl bir şkafa çevirmək olar, üstünə qrammofon valı qoymaq olar. Siz bunu bilmirsiniz?

- Yaxşı, sabah axşam o şkafı sizə gətirəcəm.

- Bu sizin tərəfdən böyük lütfkarlıqdır. Məncə, şkafı gətirəndə Ennlə birlikdə evimizə girib nəsə bir şey də içsəniz yaxşı olardı.

Onun təklifini qəbul edib dəstəyi asdım.

- Hə, onların evini görmək məqamı musiqi səslənəcək. - Qreys xəyalı qrammofonun yanında diz çöküb oturdu. "Yoxluq" dan mahnılar seçdi, gözəgörünməz qrammofonun düymələrini basdı, sonra köhnə-kürüş kreslosunda oturdu. Hətta hiss etdim ki, o "musiqiyə" qulaq asa-asa başını da yırğalayır.

Corc narahatlığını gizlətməyə çalışırdı:

- Qreys! Sən yatırsan!

O cəhd etsə də səsinin tonundan onun necə narahat olduğu hiss olunurdu.

Qreys başını yırğaladı, sonra tənbəl-tənbəl gözlərini açdı.

- Mən yatmırdım, mahnıya qulaq asırdım.

- Bu lap füsunkar otaq olacaq, - Enn narahatlıqla mənə baxıb dedi.

Birdən Qreys dik ayağa durdu, elə bil özünə enerji toplamışdı.

- Və yemək otağı, - o bir jurnalı götürüb barmağını bir şəklin üstünə qoydu. - Gözləyin, baxım görüm yataq otağı hardadır? Yox, bu deyil.

O jurnalları bir tərəfə qoyub dedi:

- Ah, mən keçən gecə o jurnalı aparıb şkafa qoymuşam. Corc, yadına düşür? Bilirsən hansı otağı deyirəm? Üstündə qədəhlər düzülmüş stol olan yataq otağı. Pəncərənin də qabağında dibçəklər.

- Aha, yadıma düşdü, - Corc dedi.

- Əsl yemək otağı elə olar, - Qreys sevincək dedi. - Bax, siz stol arxasında

Mən Corcu xoşlayırdım, o biləndə ki, biz onun arvadının ev dekorasiyası haqda dediklərinə lağ etmirik, o daha söhbətcil olurdu. Halbuki başqa qonşular bizdən fərqli onu lağa qoyurdular. Corc Qreysi çox sevirdi. Heç vaxt başqa adamlar arasında onu alçaldan söz işlətməzdi.

Enn Qreysin eyni şeydən bəhs edən söhbətlərinə dözürdü - xristianlığa xidmət kimi. Özünün xüsusi üsuluyla səbirlə onu dinləyirdi. Corcla mən isə onların söhbətlərinə fikir verməz, ev dekorasiyasından başqa istənilən mövzuda danışıb gözəl vaxt keçirirdik.

Corcla belə söhbətlərimiz vaxtı tədricən mənə aydın oldu ki, neçə illərdir ki, Corcun maliyyə durumu çox pisdir, yaxşılığa doğru heç nə baş vermir. Beş ildir ki, Corcun planlaşdırdığı "nə vaxtsa" ona qismət olmur. O hər ay ev jurnalının yeni nömrəsi gələndə artıq öz arzularından geri çəkilmək istəyirdi. Məncə, Corcun daha çox içki içməsinə səbəb heç də Qreysin hərəkətləri yox, arzusunun reallığa çevrilməyəcəyi qorxusu idi.

Şkaflarda fayllar yığılan siyirmələr getdikcə aşıb-daşır, evi isə daha pinti görünürdü. Hərdənbir biz Qreysin gələcəkdə evinin necə olması haqda söhbətini yenə də dinləməli olurduq.

Sonra isə Makklellanlar ailəsinə

fe stolunun üstündəki iri güldana qoymuşdu.

Corc qapının dəstəyini burdu, qapı açıldı. Makklellanlar özlərinin arzuladıqları evin astanasında göründülər.

- Ah, Corc, - Qreys həyəcanla dedi.

İndi o qolunu Corcun qolundan çəkib sərbəst şəkildə otağa girdi, elə bil gördüklərindən güc toplamışdı. O otaqdan otağa girdi, hər yana baxırdı. Biz onun belə elədiyini əvvəllər ən azı min dəfə görmüşdük. Ancaq yalnız bu dəfə, bu dəfə o danışmırdı. Sevindiyindən ağzını açıb heç nə deyə bilmirdi.

Sonra o qonaq otağına gəldi, gavalı rəngli kreslоda oturdu.

Corc qrammofonu burdu. Şirin pıçıltı kimi səs ətrafa yayıldı:

- Yaxşıdır?

Qreys ah çəkdi.

- Məni tələsdirmə, - o dedi. - Fikrimi ifadə etmək üçün dəqiq söz axtarıram.

- Ev xoşuna gəldi? - Corc soruşdu.

Qreys ona baxdı, dedi:

- Ah, Corc, Corc, əlbəttə, xoşlayıram. Əzizim, hər şey çox gözəldir. Axır ki arzuladığım evdəyəm.

Belə deyəndə onun dodaqları titrədi, biz hamımız bir az kədərləndik.

- Hər şey sən arzu etdiyin kimidir? Heç nə səhv deyil? - Corc soruşdu.

- Hər şey çox yaxşı etmisiniz. Hər şey səliqəli və gözəl görünür.

- Hər şey sənin istədiyin kimi olmasa bu heç sürpriz olmazdı, - Corc dedi və əllərini bir-birinə vurub dedi.

- İndi isə de görüm içə bilərsən?

- Mən ölü deyiləm. Niyə içmirəm ki, - Qreys dedi.

- Corc, bizi yola sal, evimizə gedək, - mən dedim. - Getsək yaxşıdır. Biz gəlmişdik ki, onun necə həyəcanlandığını görək, indi isə getsək yaxşıdır.

- Yox, yox, - Corc dedi.

- Siz ikiniz, ev də daxil olmaqla üçünüz tək qalsanız yaxşıdır.

- Yox, heç hara getməyin, oturduğunuz yerdən durmayın, - Corc təkid etdi və par-par yanan mətbəxə keçdi ki, içki şüşələrini gətirsin.

- Getsək yaxşıdır, - Enn ayağa durub qapıya sarı getdi - Qreys, sən ayağa durma.

- Yaxşı, əgər qalmaq fikriniz yoxdursa halallıq, - Corc mətbəxdən gələ-gələ dedi. - Heç bilmirəm, sizə necə təşəkkür edim.

- Bu vaxtacan heç vaxt belə sevinməmişdim. - Enn dedi, kafe stolunun yanına getdi ki, güldana qoyduğu gülləri yaxşı düzəltsin. -Mənim narahatlığım çarpayı örtüyünün və pərdələrin rənginə görə idi. Onlar xoşuna gəlir?

- Enn, sən də bunları hiss etmişdin? Hətta bunu sizə xatırlatmaq istəmirdim. Əlbəttə, mənim evə qayıtma mərasimimi belə bir kiçik şeylə korlamaq axmaqlıqdır. - Qreys dedi və yüngülcə alnını turşutdu.

Enn dilxor oldu.

- Ah, əzizim, məncə bu səni məyus etməz.

- Yox, yox, əlbəttə, yox, - Qreys dedi - Heç başa düşmürəm niyə belə olub, amma eyib etməz.

- Yaxşı. Sənə izah edərəm, - Enn dedi.

- Güman edirəm ki, havadan asılı olan şeydir. - Qreys dedi.

- Havadan?

- Yaxşı, bəs bunu necə izah edirdin? Bu pərdələrə gün şüası dəyən kimi rəngi tez solur.

Corc əlində içki bardağı bizə yanaşdı:

- Yaxşı, bir az oturun, sonra gedərsiniz.

Ennlə mən heç bir söz demədən bir-birimizə baxdıq.

- Əzizim, bu gün "Home Beautiful" jurnalının yeni nömrəsi gəlib, - Corc dedi.

Qreys çiynini çəkdi.

- Bunu da oxu, onsuz da sən onun bütün nömrələrini oxumusan evi bəzəyəndə.

Sonra o öz qədəhini qaldırdı.

- Xoşbəxt günlər arzulayıram, minnətdaram əzizlərim, ən çox da qızılgüllər üçün.

# Daha əzəmətli evlər

*hekayə*

çatdı, - dedim. - Qreys xanım axır ki, bizi evinə dəvət etdi.

- Qorxuram ki, onların evini görəndən sonra öz evimiz gözümüzdən düşər, - arvadım dedi.

- Həyatda evdən də mənalı şeylər var, - dedim.

- Bilirəm, bilirəm. Kaş bir dəfə o bizdə olanda yanımda dayanıb bu sözləri mənə təkrar edəsən.

O biri axşam arxası qoşqulu maşınımı onların evinə sürdüm. İş otağımdakı köhnə şkafı Qreysgilə gətirdim. Mən onların evinə çatanda Enn artıq onlardaydı. Corc bayıra çıxıb şkafı içəri aparmaqda mənə kömək etdi.

Şkaf köhnə model idi. Çox ağır idi, onun içəri aparıb zala qoyana qədər başımı qaldırıb evin içinə baxmağa macal tapmadım.

* * *

Otaqda ilk gördüyüm şey köhnə, sınıq-salxaq şkaflar oldu. Üstünə heç bir divar kağızı çəkilməyən köhnə şkaflar. Qonaq otağına girdim. Enn kresloda oturmuşdu, üzündə də qəribə təbəssüm. Otağa işıq ətrafını hörümçək toru basmış lampadan düşürdü. Elektrik məftili neçə yerdən iplə sarınmışdı.

Adətən hamamda istifadə olunan köhnə həsir evdə gördüyüm yeganə "xalça" idi. Döşəmənin taxtaları qopmuşdu. Hər tərəfdə hörümçək toru və toz vardı, pəncərələr çirkli idi. Evin yeganə "sərvəti" üstü jurnallarla dolu kofe stolu idi.

Corc çox narahat görünürdü. Mənə elə gəldi ki, bizim onlara gəlməyimiz idi onu narahat edən. O bizə içki süzəndən sonra sakitcə keçib yerində oturdu.

Ancaq Qreys onun kimi deyildi. Çox həyəcanlı idi, üzündə qarşısıalınmaz qürur vardı. Gah oturur, gah durur, elə bil otaqda rəqs edirdi. Otağı necə bəzəyəcəyini göstərirdi bizə. O əlindəki xəyalı kreslo örtüyünü kreslonun üstünə necə sərməsini göstərirdi. Palıd ağacından hazırlanmış stolun üstünə televizoru necə qoyduğunu bizə "göstərirdi".

O əllərini bir-birinə vurub deyirdi:

- Siz o divanın küncündəki stolu görürsünüz? Görürsünüz?

- O çox gözəldir, Qreys, - arvadım dedi.

- Hər axşam Corc işdən evə gələndə mən bax bu iri bardaqlarda ona içki hazır edəcəm. Qrammofonda da gözəl oturanda pəncərənin qabağındakı ətirşahları, Afrika bənövşələrini görürsünüz. Əladır?

O cəld jurnalı qoyduğu şkafa sarı getdi:

- Gərək siz onların rənglərini də görəsiniz.

Ennlə birlikdə onun arxasınca getdik. O şkafın siyirməsini açdı. Baxdım ki, siyirmələr parça və divar kağızı nümunələri, jurnalların səhifələri, müxtəlif rəngli kağızlarla doludur. İki şkafı o artıq doldurmuşdu, indi də üçüncünü, mən gətirdiyim şkafı dolduracaqdı. Hər siyirmənin üstünə etiket yapışdırmışdı. "Qonaq otağı", "Mətbəx", "Yemək otağı" və sair.

- Əsl faylyığma sistemi, - mən əlində qədəh arxamızda dayanan Corca tərəf dönüb dedim.

Corc üzümə diqqətlə baxdı, sanki bilmək istəyirdi ki, onunla zarafat edirəm, ya yox.

- Düz deyirsən, - nəhayət, o dedi.

- Hətta bir siyirmədə nə vaxtsa zirzəmidə olacaq "emalatxanama" aid də fayllar yığıb.

O ah çəkib əlavə etdi:

- Nə vaxtsa!

Qreys bir plastik materialı əlinə aldı:

- Bu mətbəxdəki pərdələri asmaq üçündür. Tasın və avtomatik qabyuyanın üstündəki pərdəni. Su keçirməyən pərdələr. Həm də onlar tez təmizlənir.

- Düz deyirsən, əzizim, - Enn dedi.

- Sizin avtomatik qabyuyanınız var?

- Hmm. Hmm. - Qreys gülümsədi. - Ah, qabyuyan? Yox, ancaq necə bir qabyuyan istədiyimi çox yaxşı bilirəm. Corc, biz qərara almışıq ki, qabyuyan alaq, elədir?

- Elədir, əzizim, - Corc dedi.

- Və nə vaxtsa, - Qreys xoşbəxtcəsinə gülümsədi və barmaqlarını fayl yığdığı siyirmənin üstünə qoydu.

- Nə vaxtsa, - Corc da təkrar etdi.

* * *

Yuxarıda da dediyim kimi, həmin vaxtdan, yəni Makklellan ailəsini tanıdığımız vaxtdan iki ilə yaxın vaxt keçib. Enn çox incə yollar tapdı, Qreysin bütün günü jurnallarla bizim evdə çox vaxt keçirməsinin qarşısını aldı. Ancaq biz onlarla heç də qonşuluq əlaqələrini kəsmədik, ayda ya bir, ya da iki dəfə onlara gedib içki içərdik.

çox ədalətli bir pis şey və çox dəhşətli yaxşı şey üz verdi. Pis şey o idi ki, Qreysə bir infeksiya keçdi, o iki ay xəstəxanada yatmalı oldu. Yaxşı şey də odur ki, Corcun heç vaxt üzünü görmədiyi bir qohumu pulunu ona miras qoydu.

Qreys xəstəxanada olanda Corc çox vaxt şam yeməyini bizdə yeyirdi. Miras aldığı gün o əvvəlki "sükutuna" son qoydu. Bizim təəccübümüzə səbəb olaraq o çox qızğınlıqla evin interyerinin dekorasiyasından danışmağa başladı.

- Deyəsən siz də Qreys kimi olmusunuz, - Enn gülüb dedi.

- Cəhənnəm olsun hər şey! Mənim indi pulum var. Mən Qreysi təəccübləndirmək istəyirəm. İstəyirəm ki, o xəstəxanadan çıxıb evə gələndə həmişə xəyal etdiyi bir evi görsün.

- Doğru deyirsən, Corc? - soruşdum.

- Əlbəttə!- o dedi.

Ennlə birlikdə biz də ona kömək etdik. Biz Qreysin şkafa yığdığı jurnallara baxdıq, hər bir otaq üçün onun seçimini bildik, hətta sabunqabları, kitabları necə düzməyi də o istəyən kimi etdik. Çox ağır iş idi. Hər xırda detalı müəyyən etmək adamı yorurdu.

Vaxt hər şeydir, pul heç nə. Onların evində montyorlar, dülgərlər, malakeşlər bütün günü dayanmadan işlədilər. Sözsüz ki, onlara fasiləsiz işlədikləri üçün əlavə pul verilirdi. Enn isə heç bir haqq gözləmədən mağazalara qaçır, sifariş verdiyi mebellərin gətirib-gətirililmədiyi ilə maraqlanırdı.

Qreys xəstəxanadan çıxmazdan iki gün əvvəl Corca qalan miras qurtarmışdı, ev isə çox möhtəşəm idi. Corc özünü dünyada ən xoşbəxt, ən qürurlu kişi hesab edirdi. Görülmüş iş qüsursuz, mükəmməl idi. Yalnız xırda bir detaldan başqa hər şey Qreysin xəyal etdiyi kimi idi. Enn qonaq otağı üçün Qreysin istədiyi rəngdə pərdə, kreslo örtüyü və süfrə tapmamışdı. Ennin seçdiyi rəng Qreysin istədiyindən azca açıq idi. Əslində, Corcla mən fərqi seçə bilmirdik.

Qreys xəstəxanadan çıxdı. Şən olsa da zəif idi. Corcun qoluna girmişdi. Axşamüstüydü. Enn ilə mən onların qonaq otağında oturmuşduq. Sözün həqiqi mənasında həyəcandan tir-tir əsirdik. Enn gətirdiyi bir buket qızılgülü ka-

İngiliscədən tərcümə:
Sevil Gültən